

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 109 (21.261)

4 iyun 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də ATƏT-in Bakıdakı layihə əlaqələndiricisi Aleksis Şahtaxtinskini diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.

Dövlətimizin başçısı Aleksis Şahtaxtinskinin Azərbaycan-ATƏT əməkdaşlığının inkişafına verdiyi töhfəni yüksək qiymətləndirib, ötən dövr ərzində həyata keçirilən layihələrin yaxşı nəticələr verdiyini vurğulayaraq ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

ATƏT-in Bakıdakı layihə əlaqələndiricisi Aleksis Şahtaxtinski fəaliyyəti dövründə təmsil etdiyi qurum ilə Azərbaycan arasında əməkdaşlığın inkişafı və eləcə də ölkəmizin rifahı naminə səylərini əsirgəmədiyini vurğulayıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Moldova Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İqor Bodiunu diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.

* * *

İyunun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıya gətirilən yeni elektrik qatarı ilə tanış olub.

## Ümummilli lider Heydər Əliyev və Azərbaycanın qurtuluşu

***Dünən bu mövzuda Naxçıvan Tibb Kollecində Heydər Əliyev lektoriyasının növbəti məşğələsi keçirilib. Məşğələni giriş sözü ilə kollecin direktoru İlhamə Mustafayeva açaraq ulu öndər Heydər Əliyevin xalqımız qarşısında tarixi xidmətlərindən bəhs edib.***



Naxçıvan Dövlət Universitetinin müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Kamal Camalov çıxış edərək bildirib ki, Azərbaycan xalqı doğma yurdunun, əzəli-əbədi torpaqlarının düşmən təcavüzündən qorunması, müstəqil dövlətin qurulması, dövlətçiliyin mühafizəsi və möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi üçün əsrlərlə mübarizə aparıb. Bu müqəddəs mübarizə salnamələrini isə vətənin böyük övladları, tarixi şəxsiyyətləri yarada bilib. Qüdrətli, müstəqil Azərbaycan dövlətinin, zəngin mədəni irsə və sivil intellektual potensiala malik olan xalqımızın çağdaş milli tarixi dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Qeyd olunub ki, ulu öndər Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi Azərbaycanın müstəqilliyinin əldə edilməsi, möhkəmləndirilməsi və inkişaf etdirilməsi baxımından çox mühüm bir mərhələ təşkil edir. Məhz həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində dövlət rəmzlərimiz haqqında qərar qəbul edilib, Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılıb, muxtar respublikanın təhlükəsizliyinin təmin olunması üçün mühüm addımlar atılıb. Eyni zamanda qonşu Türkiyə və İranla ikitərəfli əlaqələrin təməli qoyulub.

Vurğulanıb ki, tarixi zərurət – xalqın tələbi, ölkədə yaranmış böhranlı şərait, ozamankı rəhbərlərin siyasi savadsızlığı və səriştəsizliyi üzündən yaranmış hakimiyyətsizlik, torpaqlarımızın bir hissəsinin işğal olunması, ölkəmizin müstəqilliyi üçün yaranmış real təhlükə 1993-cü ilin 15 iyununda görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıtmasını zəruri edib. Beləliklə, 15 iyun xalqımızın tarixinə Milli Qurtuluş Günü kimi daxil olub.

Məruzəçi qeyd edib ki, ümummilli lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaranıb, elmi əsaslara söykənən müstəqil dövlət quruculuğu prosesinə start verilib. Dahi şəxsiyyətin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsində 1994-cü ilin mayında Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olunub, ölkəmizin milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılmasına başlanılıb. Eyni zamanda həmin ilin sentyabrında müstəqil Azərbaycanın iqtisadi inkişafında mühüm rol oynayan "Əsrin müqaviləsi" imzalanıb. Bundan sonra tarix üçün çox qısa bir dövrdə Azərbaycan sürətlə inkişaf edərək dünya dövlətləri sırasında öz layiqli yerini tutub. Ölkəmizin inkişaf tarixi minilliklərlə ölçülən qədim Naxçıvanın da hərtərəfli inkişaf etməsinə səbəb olub. İndi bu qədim diyarın mərkəzindən tutmuş ucqar dağ kəndlərinə, sərhəd məntəqələrinə qədər ümummilli lider Heydər Əliyev ideyalarının təntənəsini görürük. Məhz bu təntənə Milli Qurtuluşdan başlanan inkişafın davamıdır.

Tədbirdə ümummilli lider Heydər Əliyev haqqında sənədli film nümayiş etdirilib.

**Xəbərlər şöbəsi**

### Quruculuq

## Şərur rayonunun bir neçə kəndində kompleks quruculuq işləri aparılır

***Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonu ildən-ilə həcmi artan tikinti-quruculuq tədbirləri həsabına daha da inkişaf edir.***



Rayon mərkəzi, ən ucqar dağ və sərhəd kəndləri neçə illərdir, inkişafın yeni mərhələsini yaşayır. Həyatın bütün sahələrini əhatə edən yenilaşmə prosesi Şəruru gözəlliklər məskəninə, füsunkar bir yurd yerinə çevirib. Hər gün bir yeniliyin şahidi olan rayon sakinləri görülən işləri onlara göstərilən hərtərəfli qayğı kimi dəyərləndirir, bu qayğıya əməli işləri ilə cavab verməyə səy göstərirlər. Çünki quruculuq tədbirləri artdıqca insanlar bir vaxtlar xəyallarına belə gətirmədikləri gözəllikləri görürlər.

Son 20 ildə rayonda həyata keçirilən quruculuq tədbirlərinin həcmi çox böyükdür. Ona görə də onları adbaad sadalamaq mümkün deyil. Qısaca olaraq bildirək ki, qeyd olunan dövrdə rayonda 1 şəhər və 32 kənd mərkəzi, kənd yaşayış məntəqələrində 40 məktəb binası, Təhsil Şöbəsi, məktəbdənkənar müəssisələr, uşaq bağçası, texniki peşə və sürücülük məktəbi, rayon Mərkəzi Xəstəxanası, Araliq kənd sahə xəstəxanası, 33 kənd yaşayış məntəqəsində səhiyyə ocağı, Şərur Rayon Mədəniyyət Evi, Bahar kinoteatrı, Cəlil Məmmədquluzadənin Xatirə Muzeyi, Şərur Şəhər İncəsənət məktəbi, 2 kənd uşaq musiqi məktəbi, 33 kənd mədəniyyət müəssisəsi, rayon Rabitə İdarəsi üçün yeni binalar tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilib. Belə qayğıdan rayonun digər idarə, müəssisə və təşkilatlarına da pay düşüb. Həmin müəssisələrdə müasir iş şəraiti yaradılıb. Rayondaxili yolların müasirliyinə söz ola bilməz. Cari ildə quruculuq tədbirlərinin həcmi bir qədər də artıb. Həm rayon mərkəzində, həm də kənd yaşayış məntəqələrində müxtəlif təyinatlı obyektlərin tikintisi sürətlə davam etdirilir.

Belə ki, hazırda Şərur şəhərindəki 2 nömrəli tam orta məktəbin binasının yenidən qurulmasına hazırlıq görülür, yeni yaradılmış Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey üçün nəzərdə tutulmuş bina və yataqxana yenidən qurulur.

Kürçülü kəndi də quruculuq işlərinə start verilmiş yaşayış məntəqələrindən biridir. Hazırda kənddə 3 obyektdə sürətli iş ahəngi hakimdir. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şərur Rayon İdarəsinin bir qrup inşaatçısı kənddə 216 şagird yerlik məktəb binasının yenidən qurulması ilə məşğuldur. Tikintinin sahə rəisi Mirabdulla Seyidov söhbət zamanı bildirdi ki, yenidən qurulan məktəb binası 2 mərtəbədən ibarətdir.

İnşaatçılara hərtərəfli şərait yaradıldığından razılıqla danışan M.Seyidov onu da vurğuladı ki, obyektdə keyfiyyət amili diqqət mərkəzində saxlanılır. İnşaatçıların təhlükəsizliyinə ciddi nəzarət olunur.

Adıçəkilən təşkilatın bir qrup inşaatçısı isə kənd mərkəzinin tikintisində çalışır. Kürçülü sakinlərinə yeni qayğının ifadəsi olan bu obyekt də 2 mərtəbədən ibarət olacaq. Obyektin birinci mərtəbəsində poçt, ATS, kitabxana, polis və baytarlıq məntəqələri üçün otaqlar ayrılacaq. İnzibati ərazi dairəsi üzrə nümayəndəliyin, bələdiyyənin, klubun əməkdaşları ikinci mərtəbədə fəaliyyətlərini davam etdirəcəklər. Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı üçün də bu mərtəbədə otaqlar ayrılacaq.

Rayonun Axaməd kəndində də kompleks quruculuq işləri aparılır. Burada tikilən 192 şagird yerlik məktəb binası 3 mərtəbədən ibarət olacaq. Məktəb binasında müəllim və şagirdlərin ixtiyarına laboratoriyalar, 12 sinif otağı, idman zalı və idman müəllimləri üçün otaqlar, şahmat və kompüter otaqları, elektron lövhəli siniflər veriləcək. Tədrisin səviyyəsini yüksəltmək üçün məktəb binası müasir tədris avadanlıqları ilə təmin olunacaq.

Müasir iş şəraiti yaradılacaq 2 mərtəbəli kənd mərkəzi axamədlilərin mövcud problemlərinin həllində mühüm rol oynayacaq. Bərbərxananın, gözəllik salonunun, ərzaq və təsərrüfat malları mağazalarının, həmçinin ət satışı dükanının fəaliyyət göstərəcəyi xidmət mərkəzi də kənd sakinlərinə dövlət qayğısının ifadəsidir. Bunu kənd sakinlərinin dilindən də eşitdik. Kənd tam orta məktəbinin müəllimi Kamil Aşurov bildirdi ki, bu gün muxtar respublikada çox geniş vüsət alan quruculuq tədbirləri həm sosial-iqtisadi inkişafımızın, həm də insanlara göstərilən qayğının ifadəsidir. Kəndimizdə kompleks quruculuq tədbirlərinə başlanılması hamımızı ürəkdən sevindirir. Həyata keçirilən belə genişmiqyaslı quruculuq işləri insanlara göstərilən qayğının bariz nümunəsidir. Buna görə bütün kənd sakinləri adından dövlətimizə minnətdarlığımı bildirirəm.

Üz tuturuq daha bir quruculuq ünvanına. Bu, qədim yurd yerimiz Oğlanqala kəndidir. Bu yaşayış məntəqəsinin də müasir Azərbaycan kəndinə çevrilməsinə az qalıb. "Artay" LTD Tikinti Şirkəti inşaatçılarının əzmkarlığı bu qənaətə gəlməyə əsas verir. Şirkətin bir qrup inşaatçısı buradakı köhnə mədəniyyət evi binasının yenidən qurulmasını həyata keçirir. Yenidən qurulan bina 2 korpusdan ibarət olacaq. Birinci korpusda kənd mərkəzi, ikinci korpusda həkim ambulatoriyası yerləşəcək. Yaxın günlərdə isə kənddə xidmət mərkəzinin inşasına start veriləcək. "Artay"ın bir qrup inşaatçısı isə Yuxarı Yaycı kəndində kənd və xidmət mərkəzlərinin inşasını aparır.

Onu da qeyd edək ki, quruculuq işləri aparılan yaşayış məntəqələrində digər inşaat tədbirlərinin görülməsi də nəzərdə tutulub. Tikintisi aparılan obyektlərin ərazilərinin abadlaşdırılması, gülkarlıqların salınması, kommunikasiya xətlərinin yenilənməsi, kənddaxili yollara asfalt döşənməsi həmin yaşayış məntəqələrində mövcud olan bütün çətinlikləri aradan qaldıracaq. Həyata keçirilən tədbirlər bir məqsədə xidmət edir: rayon sakinlərinin yaşayış səviyyəsi yaxşılaşdırılsın, insanlar layiq olduğu səviyyədə yaşasın. Rayon sakinləri də bu həqiqəti dərindən dərk edir, rayonun, muxtar respublikanın və nəticə etibarilə ölkəmizin sosial-iqtisadi inkişafına öz töhfələrini verməyə çalışırlar.

**Muxtar MƏMMƏDOV**

Blokada və intibah

# Naxçıvanın təbii qazla tam təmin edilməsi son 20 ilin uğuru, blokada şəraitində nail olunan intibahın bəhrəsidir

***Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə ölkəmizin, o cümlədən muxtar respublikamızın yanacaq-energetika kompleksinin qurulması istiqamətində irimiqyaslı layihələr həyata keçirilib, 1978-ci ildə Yevlax-Xankəndi-Laçın-Şahbuz-Naxçıvan yüksəktəzyiqli magistral qaz boru xəttinin inşasına başlanılıb və 1980-ci ildə layihə uğurla başa çatdırılıb.***

İlk dəfə olaraq 1980-ci ildə Naxçıvan şəhərinə təbii qaz verilməsi təmin olunub. O zaman qaz kəmərinin uzunluğu 1804,3 kilometr təşkil edib ki, bunun da 226,4 kilometri yüksəktəzyiqli, 672,4 kilometri ortatəzyiqli, 905,5 kilometri isə aşağıtəzyiqli qaz kəməri olub. Muxtar respublikamızın qazlaşdırılması nəticəsində 1990-cı ilədək təbii qazdan istifadə edən abonentlərin sayı 33 min 330 olub. Bu zaman muxtar respublika üzrə 4 şəhər, 2 şəhərtipli qəsəbə və 91 kənd təbii qazla təmin edilib. Lakin o zaman muxtar respublikanın bütün yaşayış məntəqələrinin qazlaşdırılması mümkün olmayıb. Qaz xətti 1990-cı ilə qədər istismar olunub, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikası blokada vəziyyətinə salınıb, nəticədə, Naxçıvana təbii qazın verilməsi dayandırılıb. Kəskin kontinental iqlim şəraiti olan muxtar respublikamızda əhali qışın sərt soyuğundan qorunmaq üçün fasilələrlə verilən elektrik enerjisindən həm də istilik məqsədilə istifadə edirdi. Əlbəttə ki, bu, insanların istiliyə olan tələbatını lazımi şəkildə ödəmirdi. Belə olan təqdirdə insanlar öz əlləri ilə əkib-becərdikləri, ərsəyə gətirdikləri yaşıllıqları, hətta meyvə ağaclarını belə, kəsib istilik məqsədilə yanacaq kimi istifadə etmək məcburiyyətində qalırdılar. Ümummilli liderimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının rəhbəri olduğu dövrdə fəaliyyətinin bir istiqamətini də muxtar respublikamızın energetika və yanacaq probleminin həllinə yönəltmişdi. Bunun üçün də muxtar respublikanın təbii qazla təmin edilməsini İran İslam Respublikası vasitəsilə həyata keçirmək qarşıya məqsəd qoyulmuşdu, 1992-ci ildə ulu öndər Heydər Əliyevin İrana səfəri zamanı Xoy-Culfa qaz kəmərinin çəkilməsi və Naxçıvanın qazla təmin edilməsi barədə protokol imzalanmışdı.

2004-cü il may ayının 13-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə dövlət başçısı deyib: ***“Qaz verilməsi məsələsi də gündəlikdədir. Bu istiqamətdə də işlər aparılır. Əlbəttə, əgər Naxçıvanla Azərbaycan arasında əlaqə olsaydı, buraya qaz vermək bizim üçün problem olmazdı. Çünki Azərbaycanda ildə 5 milyard kubmetrdən çox qaz hasil edilir. Eyni zamanda 4 milyard kubmetrdən artıq idxal olunur. Naxçıvanın tələbatı 350-400 milyon kubmetrdir. Bunu təmin etmək problem deyildir. Problem odur ki, biz bu qazı Naxçıvana verə bilmirik. Belə olan halda, əlbəttə, başqa yollar arayırıq ki, bu məsələni də həll edək. Mən ümid edirəm ki, bu məsələni həll edəcəyik. Bu məsələ də həllini taparsa, əlbəttə ki, Naxçıvanda yeni müəssisələrin yaradılması prosesi daha da sürətlə gedəcəkdir. Bizim məqsədimiz bundan ibarətdir”.***

Ümummilli liderimiz Heydər Əliyevin yolunu uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin qayğısı və himayəsi ilə Naxçıvan Muxtar Respublikasının təbii qazla təminatının bərpası və muxtar respublikanın təbii qaza olan tələbatını ödəmək məqsədilə 5 avqust 2004-cü il tarixdə “Azəriqaz” Qapalı Səhmdar Cəmiyyəti və İran Milli Qaz İxracat Şirkəti arasında təbii qaz mübadiləsi haqqında müqavilə imzalandı. 15 illik fasilədən sonra – 20 dekabr 2005-ci il tarixdə Naxçıvan Muxtar Respublikasına təbii qazın nəqli bərpa edildi. 2005-ci il dekabr ayının 20-də Naxçıvana gələn Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev muxtar respublikaya təbii qazın verilməsinə həsr olunmuş təntənəli mərasimdə çıxış edərək deyib: ***“Naxçıvana İrandan təbii qazın verilməsi bu istiqamətdə atılmış çox böyük bir addımdır. Ancaq son addım deyildir. Bundan sonra da böyük birgə layihələr icra olunacaq, enerji mübadiləsi məsələsi öz həllini tapacaqdır. Bilirsiniz ki, İrandan gələn qazla işləyən elektrik stansiyaları bu yaxınlarda işə düşəcəkdir və biz Naxçıvanı elektrik enerjisi ilə tamamilə təmin etmək iqtidarında olacağıq. Bu, bir daha onu göstərir ki, siyasi iradə olan yerdə, qarşılıqlı maraq olan yerdə və dostluq, qardaşlıq münasibətləri olan yerdə istənilən məsələ də həllini tapır”.***



Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası

Mərhələlərlə həyata keçirilən qazlaşdırma 2008-ci ildə uğurla başa çatdırıldı, əhali təbii qazla təmin olundu. Naxçıvana təbii qazın nəqlinin bərpası əhalinin məişət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, sənaye potensialının möhkəmlənməsinə də səbəb oldu. Fəaliyyəti dayanmış emal və sənaye müəssisələrinin bərpa olunmasına, yeni istehsal sahələrinin yaradılmasına geniş imkanlar açıldı. Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası qazla işləmə rejiminə keçirildi, Naxçıvan Modul Elektrik Stansiyası tikilib istifadəyə verildi, Naxçıvanın enerji təhlükəsizliyi təmin olundu. Eyni zamanda təbii resurslardan səmərəli istifadə olunmasına əlverişli şərait yaradıldı. “Gəmiqaya Kərpic Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyəti, son 20 ilin nəhəng layihəsi olan Naxçıvan Sement Zavodu və neçə belə istehsal müəssisələri fəaliyyətə başladı. Bu, genişmiqyaslı quruculuq tədbirləri həyata keçirilən muxtar respublikamızda çox mühüm əhəmiyyətli bir sahə idi. Əvvəllər inşaat materialları olan kərpic və sement xaricdən idxal olunur, əlavə daşınma xərci çəkilirdi. Bu istehsal müəssisələrinin fəaliyyətə başlaması ilə problem aradan qaldırıldı, tikinti materiallarına olan tələbat yerli istehsal hesabına ödənildi. Həmçinin yeni emal və sənaye müəssisələrinin fəaliyyətə başlaması əhalinin məşğulluğunun təmin olunmasına, yeni iş yerlərinin açılmasına da geniş imkanlar açdı ki, bu da əhalinin maddi rifahının daha da yaxşılaşdırılmasında mühüm rol oynayır. Naxçıvana təbii qazın nəqlinin bərpası kütləvi məhv edilən yaşıllıqları baltanın sərt üzündən, elektrik enerjisi təsərrüfatını standartlara uyğun olmayan qızdırıcılardan xilas etdi.

### Orta və yüksəktəzyiqli qaz boru xətləri yenilənib

İstehlakçıların fasiləsiz və təhlükəsiz təbii qazla təmin edilməsi ilə yanaşı, bu sahədə infrastrukturun təkmilləşdirilməsi məsələləri də diqqət mərkəzində saxlanılır, mövcud qaz xətlərində təmir işləri aparılır, istismar müddəti başa çatmış xətlər yeniləri ilə əvəz olunur. İkinci mərhələdə həyata keçirilməsi nəzərdə tutulan orta və yüksəktəzyiqli magistral qaz boru xətlərinin yenilənməsi də uğurla davam etdirilir. Korroziyaya qarşı lazımi qoruma sistemi olmayan və uzun müddət istifadəsiz qalan Naxçıvan-Şahbuz ortatəzyiqli və Naxçıvan-Sədərək yüksəktəzyiqli qaz xətləri yararsız vəziyyətə düşmüşdü.

Ümumi uzunluğu 27 kilometr olan Naxçıvan-Şahbuz ortatəzyiqli və 81,6 kilometr olan Naxçıvan-Sədərək yüksəktəzyiqli qaz boru xətləri müasir tələblərə uyğun şəkildə çəkilib. Qaz xəttini korroziyadan qorumaq məqsədilə Şahbuz rayonunun Sələsüz kəndində bir ədəd elektrik katodqoruma qutusu, katodqorumaya nəzarət etmək üçün kəmərboyu 34 ölçmə dirəyi, 5 ədəd qazpaylayıcı məntəqə və ölçü qovşaqları, qəza halları zamanı kəmərdən qazın tamamilə boşaldılması üçün 1 ədəd kran meydançası və Babək rayonunun Cəhri kəndi ərazisində kəmərəqoşulma məntəqəsi quraşdırılıb. Qaz xətti 2013-cü ilin yanvar ayında istifadəyə verilib. 12 atmosfer işçi təzyiqə hesablanmış qaz kəməri hazırda 3 atmosfer təzyiqdə istismar olunur.

Naxçıvan-Sədərək yüksəktəzyiqli magistral qaz kəməri də müasir tələblər səviyyəsində qurulub, xəttin üzərində 4 katodqoruma sistemi, 6 qazpaylayıcı stansiya quraşdırılıb. Bu, təbii qazdan səmərəli və dayanıqlı şəkildə istifadəyə imkan verir. Təbii qazdan itkisiz və səmərəli istifadə muxtar respublikanın qaz təsərrüfatının maddi-texniki bazasının gücləndirilməsinə şərait yaradır. 75 atmosfer təzyiqdə qaz xəttində 1 milyon 500 min kubmetr təbii qaz ehtiyatı yaratmaq mümkündür ki, bu da hər hansı qəza halı baş verdikdə abonentlərin 8 gün müddətində təbii qazla tam təmin olunmasına imkan verir. Bu qaz xətti isə 2013-cü ilin oktyabr ayında istifadəyə verilib. Açılış mərasimində iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvan-Sədərək yüksəktəzyiqli qaz xəttinin istifadəyə verilməsi münasibətilə istifadəçiləri təbrik edərək deyib: ***“Naxçıvan-Sədərək yüksəktəzyiqli qaz xətti ötən əsrin 80-ci illərində ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə çəkilmişdir. Qaz xətti 1990-cı ilə qədər istismar olunmuşdur. Ermənistanın işğalçılıq siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikası blokada vəziyyətinə düşmüş, nəticədə, Naxçıvana təbii qazın verilməsi dayandırılmışdır. Bu xətt də 2005-ci ilə kimi istifadəsiz vəziyyətdə qalmışdır... Korroziyaya qarşı lazımi qoruma sistemi olmayan və uzun müddət istifadəsiz qalan Naxçıvan-Sədərək yüksəktəzyiqli qaz xətti yararsız vəziyyətə düşmüşdü. Bu səbəbdən də yeni qaz kəmərinin tikilməsi zərurəti yaranmışdı”.***

Ali Məclisin Sədri qaz təsərrüfatı işçilərinin qarşısında mühüm vəzifələrin durduğunu bildirərək deyib: ***“Naxçıvan-Sədərək yüksəktəzyiqli qaz boru xətti muxtar respublika iqtisadiyyatının inkişafında mühüm əhəmiyyətə malikdir. Qaz təsərrüfatı sahəsində çalışanlar boru xəttindən səmərəli istifadəni təmin etməli, istismar tələblərinə ciddi əməl olunmalıdır”.***

Eyni zamanda su-kanalizasiya sistemlərinin və yol infrastrukturunun yenidən qurulması ilə əlaqədar həyata keçirilən layihələr zamanı həmin ərazilərdən qaz xətləri kənarlaşdırılıb, ayrı-ayrı rayonlarda sel və daşqın zamanı zərər dəymiş müxtəlif diametrli qaz xətləri bərpa olunub.

### Abonentlər fasiləsiz və təhlükəsiz təbii qazla təmin edilir

Abonentlərin fasiləsiz və təhlükəsiz mavi yanacaqla təmin olunması mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılır. Qaz təsərrüfatında istismarda olan magistral, daşıyıcı və paylayıcı qaz kəmərlərinə, eləcə də onlar üzərindəki kranlara, siyirtmələrə və qaztənzimləyici şkaflara müntəzəm olaraq texniki baxış keçirilir, aşkar edilən nöqsanlar aradan qaldırılır. İstehlakçılara verilən təbii qazın təzyiqinə hər ay texnoloji rejim tətbiq edilir və ölçü qovşaqlarında nəzarət işi diqqətdə saxlanılır. Qaz itkisi olan istiqamətlərin müəyyən edilməsi və onları doğuran səbəblərin aradan qaldırılması üçün təxirəsalınmaz işlər görülür. Həyata keçirilən kompleks tədbirlər onu deməyə əsas verir ki, xətt təsərrüfatında baş verə biləcək hər hansı bir nasazlığın vaxtında aradan qaldırılması, əhalinin fasiləsiz və təhlükəsiz təbii qazla təmin edilməsi üçün möhkəm baza yaradılıb.

Bu gün Naxçıvan Muxtar Respublikası 100 faiz qazlaşdırılıb. Muxtar respublikanın ən ucqar dağ kəndlərinə, sərhəd məntəqələrinə belə, təbii qaz xətti çəkilib. Muxtar respublikamızın yaşayış məntəqələrində yeni tikilən yaşayış evlərinin vətəndaşların müraciətinə əsasən qazlaşdırılması işi də uğurla aparılır, yeni sayğaclar quraşdırılır və qaz təchizatı haqqında müqavilə bağlandıqdan sonra təbii qazın verilməsinə başlanılır. Ümumilikdə, muxtar respublikada 82 min 711 əhali, 1845 qeyri-əhali istehlakçı təbii qazdan istifadə edir ki, onlardan 338 abonent, 91 müəssisə cari ilin ilk 4 ayında təbii qazla təmin olunub.

Sərf olunan qazın dəyərinin vaxtında ödənilməsi də diqqət mərkəzində saxlanılır, 2015-ci ilin ilk 4 ayında istehlak olunan 104 milyon 229 min 223 kubmetr qazın satışından 10 milyon 541 min 196 manat vəsait əldə edilib, ödəmə 101,2 faiz olub. Əhali abunəçiləri üzrə istehlak olunan 52 milyon 762 min 260 kubmetr qazın satışından toplanan vəsait 5 milyon 295 min 127 manata çatıb ki, bu da 100,4 faiz ödəmə deməkdir.

***Bəli, muxtar respublikamızda qaz təsərrüfatının bərpası və yenidən qurulması istiqamətində həyata keçirilən kompleks tədbirlər öz bəhrələrini verdi. Naxçıvanın qazlaşdırılması ilə həm iqtisadiyyatımızın inkişafına geniş imkanlar açıldı, həm də əhalinin rahatlığı təmin olundu. İndi hər bir naxçıvanlı öz isti ocağında firavan günlərini yaşayır, Vətənin inkişafına töhfələrini verir. Naxçıvanın təbii qazla tam təmin olunması da son 20 ilin uğuru, blokada şəraitində nail olunan intibahın nəticəsidir.***

**Kərəm HƏSƏNOV**

## Cari ilin ilk 5 ayında 1156 nəfər işlə təmin olunub

Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi məşğulluq strategiyası bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, “Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)”nın uğurlu icrası işsizlik səviyyəsinin nəzərəçarpacaq dərəcədə azalmasına səbəb olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” muxtar respublikamızda əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təmin olunmasında mühüm rol oynayır. Proqramda nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi istiqamətində görülən işlər muxtar respublika sakinləri tərəfindən insan amilinə, onun layiq olduğu səviyyədə yaşamasına qayğı kimi dəyərləndirilir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən aldığımız məlumata görə, cari ilin ötən 5 ayı ərzində xidmət tərəfindən 1484 nəfər işaxtaran qeydiyyata alınıb, onlardan 1156 nəfər işlə təmin olunub, 176 nəfər peşə hazırlığı kurslarına cəlb edilib, 70 nəfər haqqödənilən ictimai işlərə, 21 nəfər isə kvota yerlərinə göndərilib.

## Yeni iqtisadi layihələr həyata keçirilir

Son illər Naxçıvan Muxtar Respublikasında yaradılan əlverişli biznes mühitindən bəhrələnərək daxili bazarın tələbatına uyğun yüksəkkeyfiyyətli məhsullar istehsal edən emal və sənaye müəssisələri həyata vəsiqə alır.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyindən qəzetimizə verilən məlumata görə, cari ilin ötən 5 ayında da bu istiqamətdə işlər uğurla davam etdirilib, Sahibkarlığa Kömək Fondunun və sahibkarların şəxsi vəsaiti hesabına qidayönümlü 13 istehsal müəssisəsi, 2 xidmət sahəsi olmaqla, ümumilikdə, 15 sahənin yaradılması istiqamətində işlər başa çatdırılıb. Belə ki, yeni yaradılmış istehsal müəssisələri tərəfindən süd məhsulları, çörək (lavaş), tərəvəz və sair məhsulların istehsalı həyata keçirilir. Yeni istehsal sahələrinin yaradılması əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayıb, ümumilikdə, 15 istehsal və xidmət sahəsində 76 yeni iş yeri açılıb.

Məlumatda o da qeyd edilib ki, 2015-ci ilin yanvar-may ayları ərzində Sahibkarlığa Kömək Fondunun kredit vəsaiti və digər mənbələr hesabına qida məhsulları üzrə ətin qovrulması, kompot, mürəbbə, turşu, unlu-qənnadı məmulatları istehsalı sahələrinin, toxumçuluq, arıçılıq, heyvandarlıq, quşçuluq, balıqçılıq və istixana təsərrüfatlarının, qarğıdalı əkininin, quş kəsimi sahəsinin, eyni zamanda qeyri-ərzaq məhsulları üzrə silikon yorğan-döşək və yataq bazası, müxtəlif ölçüdə və formada qızıl, gümüş zinət əşyaları, medal və nişanlar, elektrik açarları, alçıpan örtüklər, gips, əhəng məsaməli beton məmulatları istehsalı və müxtəlif növ xidmət sahələri olmaqla, 26 müxtəlif təyinatlı istehsal müəssisəsi, 7 müxtəlif növ xidmət sahələri, ümumilikdə, 33 sahə üzrə işlər davam etdirilir.

**Xəbərlər şöbəsi**

***Bioloji müxtəliflik hələ də tam öyrənilməyib. Hazırda dünyada 15 milyondan çox canlı növləri var. Lakin insanların fəaliyyəti nəticəsində ekosistemə daxil olan bir çox növlər məhv olmuş və bu proses indi də davam etməkdədir. Birləşmiş Millətlər Təşkilatının ekspertlərinin məlumatına görə, Yer kürəsində təbii meşələrin 45 faizi, əsasən, son illərdə qırılaraq məhv edilib. Son 400 ildə 150-dən çox vəhşi heyvan və quşların nəsli tamamilə kəsilib. Günümüzdə isə 600-dən artıq heyvan növünün nəslinin tamamilə kəsilməsi təhlükəsi var. Bioloji müxtəlifliyin belə sürətlə itkisi həyatın özünü təhlükədə qoymaqla yanaşı, qlobal faciələrə də səbəb ola bilər. Çünki təbiət müəyyən qanunlar çərçivəsində öz varlığını davam etdirir. Əgər təbiətə ziyan vurulursa, bu, ekoloji tarazlığın pozulmasına, nəticədə isə təbii fəlakətlərin baş vermasinə səbəb olur.***

## *Naxçıvan* – bioloji müxtəlifliyin qorunduğu diyar



9 iqlim qurşağının yerləşdiyi Azərbaycan dünyanın zəngin biomüxtəlifliyə malik ölkələrindən biridir. Ölkəmizdə biomüxtəlifliyin qorunması, ümumilikdə isə ekologiyanın mühafizəsi ötən əsrin 70-ci illərindən intensiv xarakter alıb. Azərbaycanda ekoloji problemlərin həllini hər zaman diqqət mərkəzində saxlayan, təbiətə böyük sevgi və qayğı ilə yanaşan ulu öndər Heydər Əliyev deyirdi: ***"Ətraf mühitə insani münasibət göstərilməsi, biomüxtəlifliyin qorunub saxlanılması bizim gələcəyimiz üçün çox vacibdir. Biz təbiətdən təcrid olunmuş şəkildə yaşaya bilmərik".***



Qeyd etmək lazımdır ki, bu sahədə zəngin qanunvericilik bazasının yaradılması da dahi şəxsiyyətin adı ilə bağlıdır. "Ekoloji təhlükəsizlik haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının qanunları, habelə "Bitkilərin genetik ehtiyatına dair Dövlət Proqramı", "Ətraf mühitin mühafizəsi üzrə Milli Fəaliyyət Planı", "Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli Proqram" və digər proqramlar ölkəmizdə ekoloji mühitin sağlamlaşdırılmasında mühüm rol oynayıb.

Təbii ki, Azərbaycanın mövcud biomüxtəlifliyi burada minlərlə fauna və flora növlərinin yaşamasına imkan verir. Ölkəmizin ərazilərində faunanın 18 min, məməlilərin 97, quşların 357, balıqların 100-ə, həşəratların isə 15 minə yaxın növü cəmləşib. Bunların da, ümumilikdə, 60 faizdən çoxu Naxçıvan Muxtar Respublikasının ərazisində yayılıb. Ötən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublikada digər sahələrlə yanaşı, ekologiyaya da mənfi münasibət ekoloji tarazlığın pozulmasına gətirib çıxarmışdı. Bu və ya digər səbəblərdən təbiətə göstərilən biganə münasibət muxtar respublikada fauna və flora növlərinin kəskin azalmasına, nəticədə, biomüxtəlifliyin kasadlaşmasına səbəb olmuşdu. Yalnız ümummilli lider Heydər Əliyevin 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdən başlayaraq təbiətə münasibət dəyişilib, yaşıllıqların artırılması üçün kütləvi iməciliklərə başlanılıb. Blokadanın yaratdığı çətinliklərə baxmayaraq, 1995-ci ildən sonra həyata keçirilən ekoloji tədbirlər mahiyyət etibarilə aparılan dövlət siyasətinin tərkib hissəsinə çevrilib. Son 20 ildə Naxçıvan Muxtar Respublikasında torpaqların geobotaniki tərkibinin qorunması və bərpası, xüsusi mühafizə olunan təbiət ərazilərinin, qoruq, milli park və yasaqlıqların yaradılması, meşə ehtiyatlarının həcminin artırılması, iqtisadi əhəmiyyətli bitkilərdən istifadənin tənzimlənməsi, nadir, nəsli kəsilmək təhlükəsi olan flora və fauna növlərinin xüsusi qorunması, kənd təsərrüfatında yeni müasir metodların tətbiq edilməsi bu sahədə müsbət dəyişikliklərə şərait yaradıb. Ötən dövr ərzində ekoloji problemlərin həll olunması, əlverişli ekoloji mühitin yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirilib. Bu illərdə muxtar respublikada 14 min hektardan çox yaşıllıqlar salınıb, 30 min hektar sahədə təbii meşə ehtiyatlarının artırılmasına nail olunub ki, bu da torpaqların su, külək eroziyasına uğramasının qarşısının alınmasında əhəmiyyətli rol oynayır. Xüsusilə bol sulu çay vadilərində torpaqların sel sularından mühafizəsi məqsədilə Naxçıvançay, Gilançay, Əlincəçay və Arpaçay vadilərində yüzlərlə hektar sahədə qoruyucu yaşıllıqlar salınıb.

"2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın qəbul edilməsi bu sahədə fəaliyyətin ekoloji əhəmiyyəti ilə bərabər, iqtisadi səmərəliliyini də önə çəkib, tarixi meyvəçilik təsərrüfatlarının bərpa olunmasına, mədəni bitkilərin genofondunun qorunmasına stimul verib. 1995-ci ildən ötən dövrdə həyata keçirilən tədbirlər nəticəsində muxtar respublika ərazisində, ümumilikdə, 1000 hektardan çox ərazidə meyvə bağları salınıb, yaşıllıqların sahəsi 1990-cı ildəki 0,6 faizdən 12 faizə çatdırılıb.

Torpaqların səhralaşmasının qarşısının alınması, flora və fauna ehtiyatlarının mühafizəsi və biomüxtəlifliyin artırılması məqsədilə xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılmasında, bu ərazilərin daha da genişləndirilməsinin böyük əhəmiyyəti var. 2003-cü ildə Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu, 2005-ci ildə "Arazboyu" Dövlət Təbiət Yasaqlığı, 2009-cu ildə isə "Arpaçay" Dövlət Təbiət Yasaqlığının yaradılması muxtar respublikada xüsusi mühafizə olunan təbiət ərazilərinin şəbəkəsini xeyli genişləndirib. Bu gün muxtar respublika ərazisinin 27 faizdən çoxunun xüsusi mühafizə altında olması çox diqqətçəkən məqamlardan biridir. Xatırladaq ki, ən inkişaf etmiş, təbiətə xoş münasibətilə seçilən ölkələrdə bu göstərici 10-12 faizdən yuxarı deyil.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılmasında əsas məqsədlərdən biri də mövcud ekoturizm potensialından səmərəli istifadə olunmasıdır. Bu baxımdan milli park statuslu təbiət ərazilərinin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Ölkə Prezidentinin 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının yaradılması təbiəti mühafizə ilə bərabər, ekoturizmin inkişafına da əlverişli şərait yaradır.

Naxçıvanın təbiətinin zənginliyi həm də burada nadir bitki və heyvan növlərinin mövcudluğu ilə ölçülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 avqust tarixli Sərəncamına əsasən, ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının flora və faunasına dair iki cilddən ibarət "Qırmızı kitab" çap edilib. Bu da sayı azalmaqda olan növlərin mühafizə edilməsi və artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Təbiətə qayğı ilə yanaşılmasının, ətraf mühitin qorunmasına göstərilən diqqətin nəticəsidir ki, son 20 ildə muxtar respublikada ötən əsrin 90-cı illəri ilə müqayisədə flora və fauna növlərinin həcmi 25 faizədək artıb. Təbii ki, muxtar respublikada bu sahədə görülən işlər beynəlxalq ekoloji təşkilatlar və nüfuzlu ekspertlər tərəfindən nümunə kimi dəyərləndirilir. Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondunun Qafqaz Təmsilçiliyinin direktoru Giorgi Sanadiradze Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə ötən il ünvanladığı məktubda muxtar respublikada təbiəti mühafizə sahəsində görülən işlərə yüksək qiymət verərək qeyd edib ki, "Muxtar respublikada ova qoyulmuş moratorium 10 ilə yaxın müddətdə fəaliyyətdə olması, xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması və gücləndirilməsi, yerli əhalinin məlumatlandırılması tədbirləri, təbiət komplekslərinin tədqiqi və monitorinqi artıq öz bəhrələrini verməkdədir. Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkında keçirilən biomüxtəlifliyin monitorinqi nadir və nəsli kəsilməkdə olan növlərin artım dinamikasında baş verən müsbət meyilləri göstərir. Bütün bu faktlar Naxçıvan Muxtar Respublikasında həyata keçirilən təbiəti mühafizə siyasətinin düzgünlüyünü bir daha təsdiq edir".

*Bəli, bu gün Naxçıvan Muxtar Respublikasında ekologiyaya göstərilən yüksək münasibət regionun fauna və flora növlərinin artmasına, eləcə də həcminin genişlənməsinə hərtərəfli şərait yaradıb. Artıq cəmiyyətdə də ekoloji təfəkkürün yüksək səviyyədə təzahürünün nəticəsidir ki, hər kəs ətraf mühitdən istifadəni özünün vətəndaş hüququ saydığı kimi, onun qorunmasını da vətəndaşlıq borcu kimi qəbul edir.*

Səbuhi HƏSƏNOV

## "Gənclər ətraf mühitin çirklənməsinə yox deyir" devizi altında təmizlik aksiyası keçirilib

*Dünən 5 iyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü ilə əlaqədar olaraq Uzunoba Su Anbarının ətrafında tələbə-gənclərin iştirakı ilə aksiya keçirildi. Aksiya zamanı gənclərə bukletlər paylandı. Gənclər sözügedən anbarın ətrafındakı yaşıllıqlara aqrotexniki qulluq göstərdi, ərazini məişət tullantılarından təmizlədilər.*



Aksiya iştirakçılarından Naxçıvan Musiqi Kollecinin IV kurs tələbəsi Mirtoğrul Seyidzadə bizimlə söhbətdə bildirdi ki, tədbir zamanı onlara aksiyanın təşkilatçısı olan qurumların nümayəndələri tərəfindən ətraf mühitin qorunması, təbiətdən, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası və mühafizəsi, bioloji müxtəlifliyin qorunub saxlanılması ilə bağlı məlumat verilib, gənclərin bu sahədə rolundan söhbət açılıb. Sözsüz ki, belə tədbirlər gənclərin ətraf mühitin mühafizəsinə münasibətini köklü surətdə dəyişir, onların diqqətini ekoloji problemlərin həllinə yönəldir. Buna görə tədbirin təşkilatçılarına minnətdardırlar.

Digər bir aksiya iştirakçısı, Naxçıvan Musiqi Kollecinin I kurs tələbəsi Türkanə Hümbətova ilə söhbət zamanı o, bu tədbirin muxtar respublikada ətraf mühitin mühafizəsinə verilən önəmi bir daha ortaya qoyduğunu dedi. Həmsöhbətimiz qeyd etdi ki, muxtar respublikada ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən səmərəli istifadə edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Muxtar respublikamızda bu gün ekoloji məsələlərə xüsusi diqqət yetirilməsi, həyata keçirilən tədbirlər, son illərdə doğma diyarımızın yaşıl örtüyə bürünməsi nümunə gücündədir. Yaxşı başa düşürük ki, görülən bütün işlər muxtar respublika sakinlərinin sağlamlığının və milli genofondumuzun qorunmasına xidmət edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun əməkdaşı Qabil Vəliyev bu qəbildən tədbirlərin gənclərin ətraf mühitin mühafizəsi ilə bağlı məlumatını artırdığını deyərək qeyd etdi ki, belə tədbirlər gəncləri bərk tullantıların idarə olunması, meşələrin salınması, ağac əkilməsi işlərində də yaxından iştiraka həvəsləndirir.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşı Canməmməd Canməmmədov isə təbiətin mühafizəsinin gücləndirilməsində tələbə-gənclərin üzərinə böyük vəzifələr düşdüyünü dedi. Müsahibim bildirdi ki, gənclərdə ekoloji mədəniyyət səviyyəsinin yüksəldilməsi, onların ətraf mühit sahəsində bilik və bacarıqlarının artırılması, ətraf mühitin mühafizəsinə cəlb olunması günün tələbidir.

Təmizlik aksiyasını Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi birgə təşkil etmişdi.

Səbuhi HÜSEYNOV

## Əhalinin kütləvi dispanserizasiyası davam etdirilir

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tədbirlər planına uyğun olaraq, muxtar respublikada 40-45 yaşlı əhalinin kütləvi dispanserizasiyası davam etdirilir.***

Aprelin əvvəllərindən start verilən kütləvi dispanserizasiyada bu günə kimi 2814 nəfər profilaktik tibbi müayinədən keçirilib. Onlardan 295 nəfərində xəstəlik aşkar olunaraq dispanser qeydiyyatına götürülüb.

Hazırda 40-45 yaşlı əhalinin kütləvi profilaktik tibbi müayinəsi Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında və rayon mərkəzi xəstəxanalarında tərtib edilmiş iş qrafiki əsasında terapevt, cərrah, ginekoloq, stomatoloq, oftalmoloqlar tərəfindən həyata keçirilir. Ehtiyac olan hallarda xəstələrə yüksəkixtisaslı həkimlərin, o cümlədən nevropatoloq, psixiatr, endokrinoloq, uroloq, ftiziatr, kardioloq və başqalarının konsultasiyası və laborator-diaqnostik müayinələr təşkil edilir. Xəstəlik əlamətləri aşkar edilənlər dərin yoxlamalar üçün qeydiyyata alınır, onların müalicə-profilaktika tədbirləri müəyyənləşdirilir, müalicəyə ehtiyacı olan xəstələrin stasionar müalicəsinə göstəriş verilir.

Dispanserizasiya tədbirləri iyulun 30-da başa çatdırılacaq və müayinələrin nəticələri Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində təhlil ediləcəkdir.

Azərbaycanın dövlət müstəqilliyi, torpaqlarımızın müdafiəsi uğrunda əlil olan vətəndaşların sağlamlığının qorunması da diqqət mərkəzində saxlanılır. Onların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə aparılan dispanserizasiya tədbirləri artıq başa çatıb.

Məlum olduğu kimi, dispanserizasiya əhalinin sağlamlıq vəziyyətinin qorunmasında səmərəli bir üsul kimi hazırda bütün dünyada qəbul olunur və geniş tətbiq edilir. Profilaktik tədbirlər düzgün həyata keçirildikdə xəstəliklərin vaxtında aşkar olunması, sağalması asanlaşır, ağırlaşmaların qarşısı alınır, insanların əmək qabiliyyətləri qorunub saxlanılır, əlillik azalır.

Bu məqsədlə 2013-cü ildə muxtar respublikada 20-25 yaşlı əhalinin kütləvi profilaktik müayinəsi həyata keçirilib. 40-45 yaşlıların dispanserizasiyası belə tədbirlərin məntiqi davamıdır. Çünki son illər bu yaşlarda olan insanlarda ürəyin işemik xəstəlikləri, hipertoniya, şəkərli diabet, onkoloji və digər xəstəliklərin yaranma riski artdığından onlar arasında profilaktik müayinə tədbirlərinin aparılması xüsusi əhəmiyyət kəsb edir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*İdmançılarımız üçün yaradılan şərait nəticəsində son illər əldə edilən uğurlar, qazanılan nailiyyətlər bir-birini əvəzləməkdədir. Hər ay Gənclər və İdman Nazirliyi ilə muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarının təşkil etdikləri yarışlar və turnirlər yeniyetmə, gənc idmançıların püxtələşməsi ilə nəticələnir. Geridə qoyduğumuz may ayını idman ayı hesab etmək olar.*

İdman icmalı

# Ötən ay keçirilən 20-yə yaxın yarışda üç mindən çox idmançı iştirak edib





### *Böyük idman tədbirlərinin ev sahibi – Naxçıvan*

May ayı idman sahəsində keçirilən bir çox böyük tədbirlərlə yadda qalıb. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş yarış, turnir və tədbirlərdə 3000-ə yaxın yeniyetmə və gənc iştirak edib. İlk belə böyük tədbir ayın əvvəlində Naxçıvan Şahmat Mərkəzində keçirilib.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalında 12 ölkədən 359 şahmatçı qüvvəsini sınayıb ki, onlar arasında muxtar respublikanın 80 zəka sahibi də vardı. Sevindirici haldır ki, şahmatçılarımızdan Kamil Rzayev, Həsən Rəhimov, Toğrul Həsənzadə, veteranlar arasında Zakir İsmayılov, 8 yaş (oğlanlar) qrupunda Zahid Allahverdiyev, 10 yaş (oğlanlar) qrupunda Sadiq Qarayev, 10 yaş (qızlar) qrupunda Zərrin Məmmədli, 12 yaş (qızlar) qrupunda isə Aysel Dünyamalıyeva mükafatçılar sırasına düşə biliblər.

May ayında Naxçıvan daha bir mötəbər turnirə ev sahibliyi edib. Belə ki, mayın 7-də Şərur Rayon Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş kikboksinq üzrə Azərbaycan çempionatı keçirilib.

### *İndividual, kollektiv və beynəlxalq yarışlar*

Keçirilən beynəlxalq festivalla yanaşı, Gənclər və İdman Nazirliyi ilə federasiyalar ay ərzində müxtəlif növlərdə yarışlar təşkil ediblər. May ayının ilk günlərində İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş boks üzrə Naxçıvan Muxtar Respublika turniri keçirilib. 13 çəki dərəcəsində rinqə 150-dən çox dəri əlcək sahibi çıxıb.

Ötən ay İlham Əliyev adına Olimpiya-İdman Kompleksi boksçularımızla yanaşı, güləşçilərin və kikboksinqçilərin də ixtiyarında olub. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş sərbəst və yunan-Roma güləşi üzrə muxtar respublika çempionatında 120, kikboksinq üzrə turnirdə isə 200-ə yaxın idmançı iştirak edib.

Qeyd olunan dövr ərzində idmansevərlər karate-do üzrə muxtar respublika açıq birinciliyinə, yüngül atletikanın kross qaçışı üzrə ali və orta ixtisas təhsili müəssisələrinin oğlan və qız atletləri arasında muxtar respublika turnirinə və velosiped yürüşü üzrə birinciliyə şahidlik ediblər. Bu yarışlarda 800-ə yaxın yeniyetmə və gənc qüvvəsini sınayıb.

Daim diqqət mərkəzində saxlanılan paralimpiyaçılar arasında idmanın dörd növü üzrə muxtar respublika birinciliyini isə xüsusi qeyd etmək lazımdır. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş yarışda 100-dən artıq idmançı birincilik uğrunda mübarizə aparıb.

İndividual növlərlə yanaşı, may ayında komanda tərkibli yarışların sayının çox olması diqqətdən yayınmayıb. Naxçıvan Atıcılıq Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş paintball üzrə ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında Naxçıvan Muxtar Respublika birinciliyində 7 komandada 42 idmançı, kişilər arasında voleybol üzrə muxtar respublika turnirində 8 komandada 96 voleybolçu və basketbol üzrə yeniyetmələr arasında Naxçıvan Muxtar Respublika turnirində 8 komandada 96 basketbolçu iştirak edib ki, bu da son aylar kollektiv idmana olan marağın artması kimi səciyyələndirilir.



İdmançılarımız ölkədaxili və beynəlxalq yarışlarda da bir sıra uğurlar qazanıblar. Bakı şəhərində Uşaq-gənclər idman məktəblərinin yeniyetmələri arasında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş cüdo üzrə Azərbaycan çempionatında Naxçıvan idmançıları da iştirak ediblər. Onlar arasında ən yaxşı nəticəni 73+ kiloqram çəki dərəcəsində Abdulla İsmayılov göstərib. İdmançımız yalnız həlledici qarşılaşmada məğlub olaraq ikinciliklə kifayətlənib.

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının yetirmələri isə Gürcüstan Respublikasının Tbilisi şəhərində (WSKU) Dünya Şotakan Karate Birliyinin təşkil etdiyi karate-do üzrə dünya çempionatında uğurla çıxış ediblər. Qonşu ölkəyə 2 idmançımız yollanıb ki, onların da hər ikisi Naxçıvana medallarla qayıdıb. Belə ki, karateçilərimizin iştirak etdiyi çempionatda 8 yaş qrupunda Rəşid Süleymanov (iki üslubda) ikinci və üçüncü yerlərə, 9 yaş qrupunda Günay Süleymanova isə iki üslubda birinci yerə layiq görülüblər.

May ayının son günlərində isə Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində məktəblilərin (1999-2000-ci illər təvəllüdlü) Naxçıvan Muxtar Respublika spartakiadası keçirilib. 5 idman növü – yüngül atletika, uzununa tullanma, stolüstü tennis, şahmat və basketbol üzrə keçirilən spartakiadada 8 komandada 348 idmançı iştirak edib.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 10 iyul 2015-ci ildə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın 15 faiz güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhərinin Xətai məhəlləsində 0,1003 ha torpaq sahəsində yerləşən, $58^{A}$ nömrəli, 3 girişli, 469,72 kv.m ümumi, 337,22 kv.m əsas, 132,5 kv.m köməkçi sahədən ibarət 1 mərtəbəli qeyri-yaşayış binası. Karton-makulatura sexi. | Naxçıvan şəhəri, Xətai məhəlləsi | 195.000 | 165.750 | 9.750 |
| 2. | Naxçıvan şəhəri, $7^{A}$ məhəlləsində 0,0609 ha torpaq sahəsində yerləşən 15 nömrəli binada 568,22 kv.m ümumi, 282,12 kv.m əsas, 286,1 kv.m köməkçi sahədən ibarət 1 mərtəbəli qeyri-yaşayış binası | Naxçıvan şəhəri, $7^{A}$ məhəlləsi | 120.000 | 102.000 | 6.000 |
| 3. | 0,1003 ha torpaq sahəsində yerləşən 1 mərtəbəli, 5 otaqlı, 85,55 kv.m. yaşayış sahəsindən ibarət $95^{A}$ nömrəli fərdi yaşayış evi | Naxçıvan şəhəri, 20-ci məhəllə | 130.000 | 110.500 | 6.500 |
| 4. | 46,40 kv.m ümumi, 20,4 kv.m əsas, 26,0 kv.m köməkçi sahədən ibarət qeyri-yaşayış sahəsi | Naxçıvan şəhəri, Atatürk küçəsi, bina 22 | 75.000 | 63.750 | 3.750 |
| 5. | 0,0262 ha torpaq sahəsində yerləşən 1 nömrəli, 6 girişli, 220,7 kv.m əsas, köməkçi sahədən ibarət 1 mərtəbəli qeyri-yaşayış binası (anbar-yeməkxana) | Şərur rayon Çomaxtur kəndi | 70.000 | 59.500 | 3.500 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5% məbləğində beh "Kapital Bank" ASC Şərur rayon filialında olan AZ37NABZ01350100000000001944 nömrəli hesaba və "Bank of Azerbaijan" ASC 12 saylı Naxçıvan filialında olan AZ98AZEJ00800450190909001 nömrəli hesaba 6 iyul 2015-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirakçı haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki №AZ21 NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Heydər Əliyev prospekti 6) 6 iyul 2015-ci il tarixə qədər hər gün saat $9^{00}$-dan $18^{00}$-dək qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;
- kommersiya banklarına ödəniləcək behin qəbzi;
-hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;
- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.

Hərrac 10 iyul 2015-ci ildə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

**Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.**

**Əlaqə telefonu: 545-01-38**

*Gənclər arasında 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş "Nuh yurdu" intellektual oyunu keçirilib.*

## "Nuh yurdu" intellektual oyunu keçirilib

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən oyunun məqsədi gənclərin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, eləcə də asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən ibarətdir. İntellektual oyunda yaşı 17-dən 29-dək gənclərdən ibarət 5 oyunçu olmaqla, 8 komanda iştirak edib.

Gərgin keçən mübarizə nəticəsində Naxçıvan Dövlət Universitetinin "Savalan" komandası birinci yerə, "Naxçıvan" Universitetinin "Vətən" və "İrəli" komandaları isə müvafiq olaraq ikinci və üçüncü yerlərə sahib olublar. Qaliblər təşkilatçılar tərəfindən diplom, fəxri fərman, kubok və kitablarla təltif ediliblər.

## Naxçıvanlı boksçunun daha bir uğuru

İlk dəfə Azərbaycanda keçiriləcək "Bakı-2015" Birinci Avropa Oyunlarının başlamasına az bir zaman qalıb. Artıq bu mötəbər idman tədbirində iştirak edəcək ölkələr mübarizə aparacaqları yığmalarının heyətlərini açıqlayıblar. Azərbaycanı Avropa Oyunlarında 291 idmançı təmsil edəcək ki, onlar arasında Naxçıvan idmançıları da var. İlk Avropa Oyunlarında ölkəmizin boks üzrə yığmasının heyətində 56 kiloqram çəki dərəcəsində rinqə Tayfur Əliyev çıxacaq. Onunla yanaşı, güləş yığmamızın heyətinə naxçıvanlı güləşçi Hacı Əliyev də dəvət olunub.

Boks üzrə yığmamızın heyətini müəyyənləşdirmək üçün son sparrinq görüşləri keçirilib. 56 kiloqram çəki dərəcəsində kişilər arasında son ölkə çempionu, Naxçıvan boksçusu Tayfur Əliyev rinqdə dünya çempionu Cavid Çələbiyevlə üz-üzə gəlib. Görüşü tam üstünlüklə başa vuran naxçıvanlı boksçu "Bakı-2015" Birinci Avropa Oyunlarında iştirakını təmin edib.

Bu görüşə kimi idmançımız boks üzrə kişilərdən ibarət Azərbaycan yığmasının heyətində İtaliya və Meksikada təlim-məşq toplanışında olub. Bu toplanış zamanı Tayfur Əliyev öz çəki dərəcəsində sparrinq görüşlərində italyan və meksikalı həmkarlarını məğlub etməklə diqqətləri öz üzərinə cəlb edib.

Qeyd edək ki, "Bakı-2015" Birinci Avropa Oyunlarında iştirak edəcək azərbaycanlı idmançılar iyun ayının 8-dən etibarən yeni tikilən atletlər kəndində toplaşacaqlar.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 436